# ÖLKƏMİZİ TANIYAQ

## Tur-aksiyanın növbəti iştirakçıları Qəbələ ilə tanış olublar

Prezident İlham Əliyevin tövsiyəsinə əsasən "Ölkəmizi tanıyaq" devizi altında keçirilən maarifləndirici tur-aksiyanın növbəti mərhələsi çərçivəsində Qəbələ-Şəki-Zaqatala marşrutu üzrə ekskursiyaya çıxan Ağdam, Ağcabədi, Ağstafa, Bərdə, Beyləqan, Daşkəsən, Qazax, Göyçay və Tovuz rayonlarının məktəblilərindən ibarət qruplar martın 23-də günorta saatlarında Qəbələ şəhərinə gəliblər.

"Karvansaray" və "Qafqaz Sport" otellərində yerləşən məktəblilər nahardan sonra Qəbələ rayonu ilə tanış olublar.

Onlar əvvəlcə Qəbələ şəhərinin ərazisində, Dəmiraparan çayının sahilində ağacəkmə aksiyasında iştirak ediblər.



Tur-aksiya iştirakçılarının Qəbələnin görməli yerləri ilə tanışlığı Yengicə kəndindəki zooparka ekskursiya ilə başlayıb. Məktəblilərə burada saxlanılan heyvanlar barədə məlumat verilib.

Sonra məktəblilər rayonun məşhur istirahət məkanlarından olan Nohur gölünə səyahət ediblər. Bildirilib ki, dəniz səviyyəsindən 700 metr hündürlükdə yerləşən Nohur gölünün ətrafı sıx meşələr və dağlarla əhatə olunub. Sahəsi 240 hektar olan gölün dərinliyi 24 metr, suyunun həcmi isə 16 milyon kubmetrdir.

Ekskursiyanın növbəti günü məktəblilər Şəki və Zaqatala rayonunun tarixi yerləri ilə tanış olub, görməli yerlərini gəziblər.

**"Qəbələ"**
**Səfa Aslanov (foto).**

## "Tufandağ" Qış-Yay Turizm İstirahət Kompleksi ilə tanışlıq şagirdlərdə böyük maraq doğurub

"Ölkəmizi tanıyaq" devizi ilə keçirilən maarifləndirici tur-aksiya çərçivəsində Qəbələyə gələn Ağcabədi, Ağdam, Ağstafa, Bərdə, Beyləqan, Daşkəsən, Qazax, Tovuz və Göyçay rayonlarının məktəbliləri ekskursiyanın üçüncü günü - martın 25-də rayonumuzun müasir istehsal müəssisələri, tarixi yerləri, turizm və istirahət mərkəzləri ilə tanış olublar.

Tur-aksiya iştirakçıları əvvəlcə Heydər Əliyev Mərkəzində olub, ulu öndərin həyat və fəaliyyətini əks etdirən fotoşəkillərə baxıblar.

Qəbələ Konserv Zavodunda olan məktəblilərə məlumat verilib ki, burada fəaliyyət göstərən emal müəssisələrində yarımfabrikat dondurulmuş kartof və kartof çipsi, həmçinin sərinləşdirici içkilər istehsal olunur.

Sonra məktəblilər "Tufandağ" Qış-Yay Turizm İstirahət Kompleksi ilə tanış olublar. Məlumat verilib ki, bölgənin ən çox turist qəbul edən bu obyektində hazırda 4 kanat xətti və 10 xizək yolu fəaliyyət göstərir. Kompleksdə turistlərin istirahətinin mənalı təşkili üçün hər cür şəraiti olan restoranlar və beşulduzlu "Tufandağ" oteli açılıb, dağ-xizək trası süni qaryağdıran generasiya sistemi ilə təchiz edilib. Gün ərzində kompleks 3 min nəfərə xidmət göstərə bilir.

"Tufandağ" Qış-Yay Turizm İstirahət Kompleksi son illər ölkəmiz üçün yeni idman növü olan xizəkçiliyin gənclər arasında yayılmasına səbəb olub. Kompleksin xizəkçilik mərkəzi həm turizmin inkişafı, həm də yeni dağ idman növlərinin geniş yayılması baxımından mühüm əhəmiyyət kəsb edir.



Məktəblilər kanat yolu ilə uca dağların zirvəsinə qalxaraq oradan Qəbələ şəhərinin mənzərəsini seyr edib, xatirə şəkli çəkdiriblər.

Heydər Əliyev Konqres Mərkəzi ilə tanışlıq zamanı diqqətə çatdırılıb ki, binanın birinci mərtəbəsində zallar, 350 yerlik restoran və inzibati otaqlar, ikinci mərtəbəsində isə 1200 yerlik çoxfunksiyalı konfrans zalı yerləşir. Bu zal kresloların aşağı enməsi ilə müstəvi halına keçə bilir.

Tur-aksiya iştirakçıları günün ikinci yarısında Nic qəsəbəsindəki "Çotari" alban-udi kilsəsində olublar.

Çuxur Qəbələ Tarix və Mədəniyyət Qoruğuna ekskursiya da maraqlı keçib.

"Ölkəmizi tanıyaq" devizi ilə keçirilən maarifləndirici tur-aksiyanın iştirakçıları martın 26-da öz rayonlarına yola düşüblər.

**"Qəbələ"**
**Səfa Aslanov (foto).**

## «Ölkəmizi tanıyaq» tur-aksiyası iştirakçılarının Qəbələ haqqında təəssüratları

***Nurvin Məmmədov: Vətənimizin dilbər guşələrini görmək hər bir gəncin arzusudur***

*"Ölkəmizi tanıyaq" tur-aksiyası zamanı Vətənimizin dilbər guşələri ilə tanışlıq biz məktəblilərin ürəyincədir.*

*Bu sözləri "Ölkəmizi tanıyaq" devizi ilə keçirilən tur-aksiyada iştirak edən Gəncə şəhər 39 nömrəli tam orta məktəbin 9-cu sinif şagirdi Nurvin Məmmədov müxbirimizə deyib.*



*Layihənin əhəmiyyətini yüksək qiymətləndirən Gəncə məktəblisi bildirib: "Prezidentimizin təşəbbüsü ilə reallaşdırılan bu layihədə iştirak etmək hər bir gəncin arzusudur. Bu layihə sayəsində ölkəmizin qədim tarixi, mədəniyyəti, məşhur memarlıq abidələri haqqında biliklərimizi daha da möhkəmləndirir, eyni zamanda, rayonlarda gedən sürətli inkişafın canlı şahidi oluruq".*

***Qumru Ağazadə: Hər bir gənc öz Vətəninin tarixini bilməlidir***

*"Hər bir gənc öz Vətəninin tarixini dərindən bilməlidir. Belə bir layihənin iştirakçısı olmağımdan qürur hissi keçirirəm."*



*Bu fikirləri Ağcabədi şəhər 11 saylı tam orta məktəbin 9-cu sinif şagirdi Qumru Ağazadə müxbirimizə bildirib.*

*Respublikamızın şimal-qərb bölgəsinə ekskursiya ilə bağlı təəssüratlarını bölüşən tur-aksiya iştirakçısı deyib: "Əksəriyyətimiz bu bölgədə ilk dəfədir oluruq. Qəbələnin tarixi məkanları ilə tanış olmaq hər birimizin çoxdankı arzusu idi. Prezidentimizin təşəbbüsü ilə həyata keçirilən bu möhtəşəm layihə bizi arzumuza qovuşdurub. Biz məktəbdə öyrəndiklərimizi bu ekskursiya zamanı daha da təkmilləşdirir, yeni bilgilər əldə edir, istirahətimizi mənalı keçiririk".*

***Emil Cəfərov: Xoş təəssürat heç vaxt yadımdan çıxmayacaq***

*"Ölkəmizi tanıyaq" devizi ilə keçirilən tur-aksiyaya Ağstafa rayonundan qoşulmuşuq. Layihədə iştirak etdiyimə görə özümü xoşbəxt sanıram. Bu səyahət mənim həyatımda çox böyük hadisədir və tur-aksiyadan aldığım xoş təəssürat heç vaxt yadımdan çıxmayacaq.*

*Bu sözləri tur-aksiyanın iştirakçısı, Ağstafa şəhər 2 saylı tam orta məktəbin 10-cu sinif şagirdi Emil Cəfərov "Qəbələ"nin müxbirinə deyib.*



*Prezident İlham Əliyevin tövsiyəsi ilə reallaşan bu layihənin şagirdlərin hərtərəfli inkişafına, dünyagörüşlərinin zənginləşməsinə çox yaxşı təsir göstərdiyini vurğulayan Ağstafa məktəblisi deyib: "İndiyədək ölkəmiz, həmçinin səyahət etdiyimiz rayonlar barədə tarix və coğrafiya kitablarından müəyyən məlumatlar əldə etsək də, məhz bu tur-aksiya sayəsində doğma Azərbaycanımızın qədim tarixi məkanlarını, gözəlliklərini yaxından seyr etdik, ölkəmiz haqqında biliklərimiz daha da zənginləşdi."*

**"Qəbələ"**
**Səfa Aslanov (foto).**